# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**2023-2024-cü illərdə Azərbaycanda Avropa Şəhərciyi**



**İcra müddəti:** 06.02.2023 - 05.08.2024

**ŞT ölkələri:**
Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 179 950

**Ümumi büdcə:** € 179 950

**İcraçı təşkilat(lar):**
GOPA PACE Consortium

**Sosial media hesablarına keçidlər:**

**Layihənin təsviri:**

Layihənin məqsədi Aİ-nin Azərbaycandakı Nümayəndəliyi üçün biri Bakıda, digəri isə Azərbaycanın regionlarından birində olmaqla açıq havada irimiqyaslı iki Avropa Şəhərciyi tədbiri təşkil etməkdir.
Avropa Şəhərciyinin hədəf kütləsi  Azərbaycanda ümumi əhali kütləsidir, bu, bir günlük, geniş miqyaslı ictimaiyyət üçün açıq olan tədbirdir. Tədbir zamanı Avropa İttifaqını, Aİ-yə Üzv Dövlətlərin Səfirlikləri və Aİ-nın maliyyələşdirdiyi layihələri, eləcə də Avropa mədəniyyətini və ənənələrini nümayiş etdirmək planlaşdırılır. Tədbirin hədəf auditoriyası geniş ictimaiyyət, xüsusilə də gənclər, tələbələr, müəllimlər və uşaqlı ailələrdir.
Tədbir çərçivəsində Aİ-yə Üzv Dövlətlər, Aİ-nin Azərbaycandakı Nümayəndəliyi, Aİ tərəfindən maliyyələşdirilən layihələr və yerli tərəfdaşlar üçün çadırlar və ifa üçün çadır qurulacaq, müxtəlif fəaliyyətlər aparılacaqdır.

**Gözlənilən nəticələr:**

1. Avropa Şəhərciyi tədbirləri üçün aparılan PR kampaniyası nəticəsində Aİ Nümayəndəliyinin sosial media hesablarına minimum 50.000 giriş;
2. 2023 və 2024-cü illərdə hər Avropa Şəhərciyində 10.000-dən çox insanın iştirakı
3. 2023 və 2024-cü illərdə hər Avropa Şəhərciyində sərgi üçün ən azı 25 çadır və bədii ifalar üçün əsas səhnənin qurulması
4. 2023 və 2024-cü illərdə hər Avropa Şəhərciyində minimum 10.000 nəfər ziyarətçiyə paylanacaq promo/məlumatlandırma materialları.